● Şemsullah Aqayi

## Bir Arxa Getmir

Sən var dəlisi, mən yar dəlisi
Onun çün suyumuz bir arxa getmir
Sən şəhər aşiqi, mən kənd ölüsü
Onun çün suyumuz bir arxa getmir

Sən yaman inadkar, mən dizə çökən
Mən sülhə yıxılan, sən bir qan əkən
Sən cəza verənsən, mən cəza çəkən
Onun çün suyumuz bir arxa getmir

Sən atlaz geyirsən, gülüm mən çuxa
Mən yoxsul quluyam, sən qulsan toxa
Sən bir daş ürəkli, mən qəlbi yuxa
Onun çün suyumuz bir arxa getmir

Sənin hər nəyin var, mən ayaq yalın
Olmusan bərdəsi, beş qıran pulun
Mənim öz yolum var, sənin öz yolun
Onun çün suyumuz bir arxa getmir

*Şəmsulla* fəryadın göyə çatıbdı
Talehin oyanmır ağır yatıbdı
Sandən üz döndərib, səni atıbdı
Onun çün suyumuz bir arxa getmir